**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

Təsdiq edirəm
Tədris məsələləri üzrə prorektor v.i.e:
__________dos. Zaur Məmmədov
"12". "IX". 2025-ci il

**İxtisas: 050407**- "Marketinq" AB

**Fənn sillabusu**

**Fakültə:** "İqtisadiyyat və idarəetmə"
**Kafedra:** "Maliyyə idarəetməsi və audit"
**I.Fənn haqqında məlumat:**
**Fənnin adı:** S/f("Logistikanın əsasları") ( Kafedranın 12 sentyabr, 2025-ci il, 01 saylı protokolu ilə təsdiq edilmişdir.)
**Fənnin kodu:** İPFS- B03
**Tədris ili:** III (2025-2026); I semestr
**Ümumi tədris yükü:** Cəmi: 30 saat (30 saat mühazirə)
**Fənnin tədris forması:** Əyani
**Fənnin tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 6 kredit
**II.Müəllim haqqında məlumat:**
**Adı, soyadı, elmi dərəcəsi və elmi adı:** b/m .Hüseynli Nuran Miraqil oğlu
**Məsləhət günləri və saatı:** V gün saat $9^{00}$-$13^{00}$.
**E-mail ünvanı:** nurangaga@yahoo.com
**Kafedranın hüquqi ünvanı:** Lənkəran. ş., Füzuli küç.,170-a
**III. Tövsiyyə olunan dərslik, dərs vəsaiti və metodiki materiallar:**
**Əsas**

1. T.İ.İmanov. "Logistikanın əsasları". Bakı, 2005
2. A.Abbasov ."Biznesin əsasları". Bakı, 2005.
3. A.H.Tağıyev, S.A.Fərzəliyev."Biznesin təşkili və idarə edilməsi". Bakı, 2007.
4. A.Şəkərəliyev. "Biznesin təşkili və idarə edilməsi". Bakı, 2008.
5. A. Məhərrəmov, L.Abışlı. "Müəssisənin iqtisadiyyatı". Bakı, 2013.

**Əlavə**

6. Abbasov A.B. Sahibkarlıq fəaliyyəti: növləri, təşəkkülü və inkişaf problemləri. Bakı, 1996.
7. D.A.Bağırov, M.X.Həsənli, R.N.Quşxani. Korporativ maliyyə. Bakı, 2010.
8. Ə.Əlirzayev. Azərbaycanda sahibkarlığın inkişafı problemləri və həlli yolları: nəzəriyyə və təcrübə. Bakı, 2000.
9. Y. Məlikov. İnformasiya iqtisadiyyatı. Bakı, 2009.
10. Əliyev T.N. və başq. Müştərək müəssisə və sahibkarlıq. Bakı, 2001.
11. N. Məmmədov. İqtisadi təhlükəsizlik. Bakı, 2006.

**IV. Prerekvizitlər:** Fənnin tədrisi üçün ilkin olaraq "Makroiqtisadiyyat" fənninin tədrisi zəruridir.

**V. Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxta başqa fənlərin də tədris olunmasına zərurət yoxdur.

**VI. Kursun təsviri və məqsədi:** Dunya iqtisadiyyatının qloballaşdığı bir şəraitdə material axınlarının təşkili və idarəedilməsi prosesləri haqqında tələbələrə nəzəri və praktiki biliklər verən "Logistikanın əsasları" fənni logistik yanaşma əsasında istehsal və mübadilə sferasında logistikanın ayrı-ayrı funksional sahələrinin fəaliyyət istiqamətlərini müəyyənləşdirməkdən, bazar subyektlərinin tələb olunan kəmiyyətdə və keyfiyyətdə, lazımı vaxtda və zəruri yerdə material resursları ilə təmin edilməsi konsepsiyalarının düzgün dərk edilməsindən ibarətdir. Burada bazar iqtisadiyyatı şəraitində ayrı-ayrı sferalar arasında əlverişli sahibkarlıq mühitinin formalaşdırılması, əlaqələrin yaradılması və s. məqsədi ilə biznes ayrı-ayrı formaları arasında üzvi vəhdət, məntiqi ardıcıllıq nəzərə alınmışdır. Kursun məqsədi, tələbələrə iqtisadiyyatın bütün sahələrində sahibkarlıq və digər biznes subyektlərinin normal iqtisadi fəaliyyətinə kömək edən kompleks tədbirlərin işlənib hazırlanmasına dair zəngin biliklər vermək, iqtisadçı-bakalavrlara logistikanın nəzəri və praktiki məsələləri, bazar iqtisadiyyatlı ölkələrində logistikanın təşkili mexanizmi haqqında zəruri bilikləri öyrətməkdir.

**VII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:** Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində, 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir.

Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzərə alınır.

İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir. Qiymət meyarları aşağıdakılardır:

- 10 bal- tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;
- 9 bal-tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir;
- 8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal- tələbə keçilmiş materialı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;

- 6 bal- tələbənin cavabı əsasən düzgündür;
- 5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;
- 4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal- tələbənin mövzudan qismən xəbəri var;
- 0 bal- suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.

Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | Əla | A |
| 2. | 81-90 | Çox yaxşı | B |
| 3. | 71-80 | Yaxşı | C |
| 4. | 61-70 | Kafi | D |
| 5. | 51-60 | Qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | Qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:** Tələbə Universitetin daxili nizam–intizam qaydalarını pozduqda onun haqqında əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcək.

**X. Təqvim mövzu planı:** Cəmi: 30 saat (30 saat mühazirə)

| № | Keçirilən mühazirə, seminar, məşğələ, laboratoriya və sərbəst mövzuların məzmunu | Mühazirə | |
|---|---|---|---|
| | | Saat | Tarix |
| 1 | 2 | 3 | 4 |
| 1. | Mövzu 1. Bazar iqtisadiyyati sistemində logistika<br>Plan:<br>1. Logistika anlayışı və onun qısa tarixi<br>2. Logistikanın tarixi inkişaf mərhələləri<br>3. Logistikanın inkişafını şərtləndirən amillər<br>4. Müasir iqtisadi şəraitdə ümumlogistik problemlər<br>Mənbə: [3,4,6,10] | 4 | |
| 2. | Mövzu 2. Logistikanin nəzəri-metodoloji əsasları<br>Plan:<br>1. Logistikanın paradiqması<br>2. Logistikada istifadə olunan modellər<br>3. Logistikanın ümumi vəzifələri və əsas prinsipləri<br>Mənbə: [3, 6,10] | 2 | |
| 3. | Mövzu 3. Logistik idarəetmənin obyektləri<br>Plan:<br>1. Logistik idarəetmədə obyektlərin təsnifatı<br>2. Maliyyə axınları və onların iqtisadi təbiəti<br>3. İnformasiya axınları və onları xarakterizə edən parametrlər<br>Mənbə: [3, 6,11] | 2 | |
| 4. | Mövzu 4. Logistikanın funksiyaları<br>Plan:<br>1. Logistik əməliyyatlar və funksiyalar<br>2. Makro və mikro səviyyədə logistikanın əsas funksiyaları<br>3. Logistik missiya və ətraf mühit<br>Mənbə: [3,4,7,8] | 2 | |
| 5. | Mövzu 5. Əsas logistik konsepsiyalar<br>Plan:<br>1. Firmaların logistik konsepsiyası<br>2. «Dəqiq vaxtında» logistik konsepsiyası<br>3. Logistikaya qoyulan əsas tələblər<br>Mənbə: (3,6,10) Mənbə: [3, 6,10] | 2 | |
| 6. | Mövzu 6. Logistik sistemlər<br>Plan:<br>1. Logistik sistemlər və onların xassələri<br>2. Logistik sistemlərin təsnifatı<br>3. «Kanban» mikrologistik sistemi<br>4. Logistik sistemlərin fəaliyyətinin qiymətləndirilməsi | 2 | |

| | | | |
|---|---|---|---|
| | Mənbə: [3, 6,8,11] | | |
| 7. | Mövzu 7. İstehsal logistikası<br>Plan:<br>1. İstehsal logistikasının mahiyyəti<br>2. İstehsal logistikasında material axınlarının idarə edilməsi<br>3. Çevik-istehsal logistik sistemlərin növləri<br>4. Material axınlarının təşkili və idarəedilməsinə qoyulan tələblər<br>Mənbə: [2,3,4,7,12] | 2 | |
| 8. | Mövzu 8. Tədarükat logistikası<br>Plan:<br>1. Tədarükat logistikasının vəzifə və funksiyaları<br>2. Tədarükatın planlaşdırılması<br>3. Məhsulgöndərənlərin seçilməsi<br>4. Tədarükat üzrə hesablaşmaların əsas formaları və mahiyyəti<br>5. Tədarükatın hüquqi əsasları<br>Mənbə: [3,6,7] | 2 | |
| 9. | Mövzu 9. Bölüşdürücü logistika<br>Plan:<br>1. Bölüşdürücü logistikanın mahiyyəti və vəzifələri<br>2. Bölüşdürücü logistikada sifarişlərin idarə edilməsi<br>3.Bölüşdürücü logistikada məhsulgöndərmələrin idarə edilməsi<br>4. Məhsulların bölüşdürülməsi kanalları<br>5. Logistik vasitəçilər və onların funksiyaları<br>Mənbə: [1,3,6,7] | 2 | |
| 10. | Mövzu 10. Nəqliyyat logistikası<br>Plan:<br>1. Logistikanın nəqliyyata təsiri<br>2. Nəqliyyat növlərinin təsnifatı<br>3. Yüklərin nəql edilməsinin təşkili və idarəedilməsi<br>4. Məhsulgöndərmənin bazis şərtləri<br>Mənbə: [3,5,8,10] | 2 | |
| 11. | Mövzu 11. Anbar logistikası<br>Plan:<br>1.Logistik sistemdə anbarların yerinə yetirdiyi vəzifə və funksiyalar<br>2. Anbarların təsnifatı<br>3. Logistik anbarların quruluşu və planlaşdırılması<br>4. Anbar avadanlıqları<br>5. Anbarda yerinə yetirilən logistik əməliyyatlar<br>Mənbə: [3,6,7,12] | 2 | |
| 12. | Mövzu 12. Tara təsərrüfatı<br>Plan:<br>1. Logistik yük vahidlərinin saxlanması və daşınmasında tara təsərrüfatının əhəmiyyəti<br>2. Taraların təsnifatı<br>3. Logistik yük vahidi anlayışı və onun ölçüləri<br>4. Yük vahidlərinin paketləşdirilməsi<br>Mənbə: [2,3,6,7] | 2 | |
| 13. | Mövzu 13. Logistik sistemlərdə ehtiyatların idarə edilməsi<br>Plan:<br>1. Ehtiyatlar təsərrüfat subyektlərinin iqtisadi təhlükəsizliyinin təmin ediməsi vasitəsi kimi<br>2. Ehtiyatların idarəedilməsi şərtləri və səbəbləri<br>3. Ehtiyatların təsnifatı<br>4. Ehtiyatların yerinə yetirdiyi əsas funksiyalar<br>5. Ehtiyatların idarəedilməsi ilə bağlı yaranan xərclər və onların tərkibi<br>Mənbə:[2,3,6,7] | 2 | |
| 14. | Mövzu 14. İnformasiya logistikasi<br>Plan:<br>1. Logistik informasiya sistemləri<br>2. Logistik informasiya sistemlərinin qurulması prinsipləri<br>3. Logistik informasiya sistemlərinin idarəetmə obyektləri və subyektləri<br>4. Logistik idarəetmədə müasir informasiya texnologiyaları<br>Mənbə: [3,6,11] | 2 | |
| X | Cəmi: | 30 | |

**XI. Fənn üzrə tələblər:** Müasir şəraitdə iqtisadiyyat sahəsində bacarıqlı, təşəbbüskar kadrların hazırlanmasında logistik idarəetmənin müxtəlif formalarının öyrənilməsi böyük əhəmiyyətə malikdir. Bazar münasibətləri sisteminin mürəkkəbliyi, məhsulların bölgüsü prosesinə keyfiyyətcə yüksək tələbkarlıq, çevik istehsal sistemlərinin yaradılması, məhsulların daşınması, saxlanması, zəruri ehtiyatların yaradılması və onlara nəzarət, tədarükat

prosesinin planlaşdırılması və təşkili mexanizmi, servis xidməti və s. logistikanın bir elmi sahə kimi tətbiqini zəruri edən ən mühüm amillərdir. Ona görə logistikanın iqtisadi mahiyyətinin öyrənilməsi, gələcək iqtisadçılara resurs mərhələsində hər bir təsərrüfat subyekti material, maliyyə, informasiya, kadr və digər resursların həm istehsal, həm də tədavül sferasında səmərəli idarə edilməsinin mümkün yollarını göstərməyə imkan yaradır.

**XII.Fənn üzrə təlimin nəticələri:** "Logistikanın əsasları" fənni üzrə proqramda nəzərdə tutulan mövzuların səmərəli tədrisi bakalavr səviyyəsində iqtisadçı kadrlara material axınlarının təşkili və idarəedilməsi haqqında lazımi biliklərin mənimsənilməsinə imkan verəcəkdir.

**XIII. Tələbələrin fənn haqqında fikirlərinin öyrənilməsi:**

**XIV.Kollokvium sualları:**

**I Kollokvium sualları :**

1. Logistika anlayışı və onun qısa tarixi
2. Logistikanın tarixi inkişaf mərhələləri
3. Logistikanın inkişafını şərtləndirən amillər
4. Müasir iqtisadi şəraitdə ümumlogistik problemlər
5. Logistikanın paradiqması
6. Logistikada istifadə olunan modellər
7. Logistikanın ümumi vəzifələri və əsas prinsipləri
8. Logistik idarəetmədə obyektlərin təsnifatı
9. Maliyyə axınları və onların iqtisadi təbiəti
10. İnformasiya axınları və onları xarakterizə edən parametrlər
11. Logistik əməliyyatlar və funksiyalar
12. Logistik missiya və ətraf mühit
13. Firmaların logistik konsepsiyası
14. «Dəqiq vaxtında» logistik konsepsiyası
15. Logistikaya qoyulan əsas tələblər

**II Kollokvium sualları :**

1. Logistik sistemlər və onların xassələri
2. İstehsal logistikasının mahiyyəti
3. Tədarükat logistikasının vəzifə və funksiyaları
4. Tədarükatın planlaşdırılması
5. Məhsulgöndərənlərin seçilməsi
6. Tədarükatın hüquqi əsasları
7. Bölüşdürücü logistikanın mahiyyəti və vəzifələri
8. Bölüşdürücü logistikada sifarişlərin idarə edilməsi
9. Məhsulların bölüşdürülməsi kanalları
10. Logistik vasitəçilər və onların funksiyaları
11. Nəqliyyat növlərinin təsnifatı
12. Anbarların təsnifatı
13. Anbar avadanlıqları
14. Anbarda yerinə yetirilən logistik əməliyyatlar
15. Taraların təsnifatı

**XV.İmtahan sualları:**

1. Logistika anlayışı və onun qısa tarixi
2. Logistikanın tarixi inkişaf mərhələləri
3. Logistikanın inkişafını şərtləndirən amillər
4. Müasir iqtisadi şəraitdə ümumlogistik problemlər
5. Logistikanın paradiqması
6. Logistikada istifadə olunan modellər
7. Logistikanın ümumi vəzifələri və əsas prinsipləri
8. Logistik idarəetmədə obyektlərin təsnifatı
9. Maliyyə axınları və onların iqtisadi təbiəti
10. İnformasiya axınları və onları xarakterizə edən parametrlər
11. Logistik əməliyyatlar və funksiyalar
12. Makro və mikro səviyyədə logistikanın əsas funksiyaları
13. Logistik missiya və ətraf mühit
14. Biznesin digər sahələri ilə logistikanın qarşılıqlı əlaqəsi

15. Firmaların logistik konsepsiyası
16. «Dəqiq vaxtında» logistik konsepsiyası
17. Logistikaya qoyulan əsas tələblər
18. Logistik sistemlər və onların xassələri
19. Logistik sistemlərin təsnifatı
20. «Kanban» mikrologistik sistemi
21. Logistik sistemlərin fəaliyyətinin qiymətləndirilməsi
22. İstehsal logistikasının mahiyyəti
23. İstehsal logistikasinda material axinlarinin idarə edilməsi
24. Çevik -istehsal logistik sistemlərin növləri
25. Tədarükat logistikasının vəzifə və funksiyaları
26. Tədarükatın planlaşdırılması
27. Məhsulgöndərənlərin seçilməsi
28. Tədarükatın hüquqi əsasları
29. Bölüşdürücü logistikanın mahiyyəti və vəzifələri
30. Bölüşdürücü logistikada sifarişlərin idarə edilməsi
31. Məhsulların bölüşdürülməsi kanalları
32. Logistik vasitəçilər və onların funksiyaları
33. Logistikanın nəqliyyata təsiri
34. Nəqliyyat növlərinin təsnifatı
35. Məhsulgöndərmənin bazis şərtləri
36. Anbarların təsnifatı
37. Logistik anbarların quruluşu və planlaşdırılması
38. Anbar avadanlıqları
39. Anbarda yerinə yetirilən logistik əməliyyatlar
40. Taraların təsnifatı
41. Yük vahidlərinin paketləşdirilməsi
42. Ehtiyatların idarəedilməsi şərtləri və səbəbləri
43. Ehtiyatların təsnifatı
44. Logistik informasiya sistemləri
45. Logistik informasiya sistemlərinin qurulması prinsipləri

Sillabus "Maliyyə idarəetməsi və audit" kafedrasında müzakirə edilərək, təsdiq olunmuşdur ("12" sentyabr 2025-ci il "01" saylı iclas protokolu).

Kafedra müdiri: dos. Əlixan Bədəlov

Fənn müəllimi: b/m. Nuran Hüseynli